Fəzail İsmayıl Böyükkişi

IV YAZI

Azərbaycan Cümhiriyyətinin yoxdan var olan ordusu

(Azərbaycan Cümhuriyyətinin 100 illiyi münasibətilə)

Azərbaycan Cümhiriyyətinin yarandığı ilk gündən yaranmış mürəkkəb və həssas tarixi şərait öz təhlükəsizliyini və gələcəyini təmin etmək üçün Azərbaycan əhalisinin də milli hərbi hissələr yaratmasını təkidlə tələb edirdi.

Gürcüstana və Ermənistana nisbətən bu sahədə Azərbaycanın vəziyyəti çox ağır idi. Belə ki, Azərbaycan milli-demokratik qüvvələrinin ixtiyarında milli hərbi hissələr yox dərəcəsində idi. Bu da çar dövründə imperiyanın Azərbaycana yüz il ərzində yeritdiyi siyasətin nəticəsi idi. Azərbaycan imperiyanın Şərq ölkələri ilə həmsərhəd və onlara mənəvi-maddi tellərlə sıx bağlı olan milli ucqar idi. Burada mərkəzdən qaçma qüvvələri güclü olduğu üçün çar rusiyası Azərbaycana etibar etmirdi. Odur ki, çarizm regionun xristian əhalisindən fərqli olaraq Azərbaycanın yerli müsəlman əhalisini orduya götürmür, ona silah vermirdi, bununla da o xanlıqlar dövrünə aid hərbi iş sərištəsini belə itirmiş millətin nizami qüvvə yaratmaq ehtimalını azaldırdı. Buna görə də qonşu gürcü və ermənilərdən fərqli olaraq Azərbaycan xalqı öz içində yetərincə əsgər və xüsusi zabit kadrları çıxarmaq imkanından məhrum idi. Üstəlik çarizm İranı zəif ölkə sayırdı. Odur ki, bu ölkə ilə sərhədlərdə güclü ordu saxlamağa ehtiyac duymurdu və imperiyanın dağılmasından sonra ona görə də Azərbaycan ərazisində az-çox dərəcədə hərbi əhəmiyyətli cəbhəxana yox idi. Qonşuların hərbi təzyiqinə məruz qalmış Azərbaycan bu təzyiqi əli yalın qarşılayırdı. Cəbhəni tərk etmiş rus qoşunlarının yerini tutan erməni hərbi hissələri Osmanlı qoşunlarının zərbələri altında geri çəkilərkən öz heyflərini yerli Azərbaycan (türklərindən) əhalisindən çıxırdı. On minlərlə müsəlman qətlə yetirilirdi, kəndlər darmadağın edilirdi.

Azərbaycanın daxili mahallarını isə anarxiya başına götürmüşdü. Azərbaycanın şərqində-Bakı və ətrafında da prinsip etibarı ilə eyni proseslər gedirdi, burada da milli özünü müdafiə dəstələrinin yaradılmasının qarşısı alınırdı.

Siyasi proseslərin dramatik inkişaf meylini dərk edən milli demokratik qüvvələr nizami qüvvə yaratmaq sahəsində elə fevral inqilabından az sonra cəhd etmişdilər. 1917-ci ilin mayında toplanmış Qafqaz müsəlmanları qurultayı başqa qərarlarla yanaşı, Qafqazda müsəlman xalqlarının hərbi potensialını müəyyən etmək məqsədi ilə burada əhalinin ümumi siyahıya alınmasını keçirmək, müsəlman alaylarını yaratmaq üçün qərar qəbul etdi. Həmin ilin oktyabrında keçirilmiş – "Müsavatın" I qurultayının qətnamələrindən biri milli ordu yaratmaq zərurətinə həsr edilmişdi. Noyabr ayında Zaqafqaziya komissarlığı milli hərbi korpusların yaradılması haqda qərar verdi. Çox tezliklə gürcü, erməni, rus hərbi korpuslarının şəxsi heyəti toplandı, onların təhcis işi sürətləndirildi. İlin sonuna yaxın erməni korpusunun tərkibində artıq 3 piyada diviziyası, süvari briqadası və ərazi polları vardı.

Azərbaycan korpusunu təşkil etmək işi tapşırılmış general Ə.Şıxlinski xatirələrində yazırdı ki, "hamı ordunun yaradılmasını istəyirdi, kömək tələb edirdi, amma heç kəs öz oğlunu və qardaşını orduya vermək istəmirdi". On illərlə hərbi işdən yadırğadılmış millətin bu vacib işə soyuq münasibətindən əlavə, qonşuların da Azərbaycan hərbi hissələrin təşkilinə mane olması nəticəsində korpus yaradılması işi çox ləng gedirdi. Odur ki, Azərbaycan müstəqilliyə qədəm qoyduğu ərəfədə Azərbaycan Milli Şurasının keçmiş müsəlman hərbi dəstələrdən (həqarətlə "vəhşi diviziya" adlandırılan diviziyanın qalıqlarından) ibarət 600 nəfərlik hərbi hissəyə güvənə bilərdi. Bu qüvvə ilə öz müstəqilliyini elan etmiş Azərbaycan Demokratik Respublikası hökumətinə məngənə arasına alınmış xalqın fiziki varlığını nə Azərbaycan torpaqlarının ərazisi bütövlüyünü, nə Respublikanın suverenliyini qoruya bilərdi, hələ üstəlik daşnak hərbi hissələrindən ibarət Bakı Soveti qoşunları da Azərbaycanın müvəqqəti paytaxtı Gəncə üzərinə hücuma hazırlaşırdı, Azərbaycanın qərbindən daşnak qırğınları dalğası da Şərqə doğru irəliləyirdi. Beləliklə, Azərbaycanın türk yurdu kimi qalıb-qalmaması məsələsinin həll edildiyi dramatik tarixi şəraitdə Azərbaycan Demokratik hakimiyyəti çıxış yolu arayırdı.

Azərbaycanın həmin dövrdə kömək uma biləcəyi yeganə dövlət Türkiyə dövləti idi. Belə ağır şəraitdə Azərbaycanın ayrı-ayrı mahallarının nümayəndələri və Milli Şura üzvləri Türkiyənin Şərq cəbhəsi komandanı Vəhab Paşadan kömək göstərməsini təkidlə xahiş edirdilər. May ayında Türkiyənin hərbi naziri və ali baş komandan müavini Ənvər Paşa öz qardaşı Nuru Paşaya Təbriz ərtafından Gəncəyə doğru hərəkət etməsi haqqında əmr verdi. Ayın sonunda təlimatçılar heyətilə birlikdə Gəncəyə yetişən Nuru Paşa Azərbaycan Ordusuna könüllü toplanması işinin lazımi sürətlə getməməsi işinin şahidi oldu. Azərbaycan hökumətinin hərbi qərarına əsasən Azərbaycanda hərbi vəziyyət elan edildi. Müsəlman korpusu "əlahiddə Azərbaycan korpusu" adlandırıldı, burada xidmət edəcək zabit kadrları hazırlamaq üçün qısa müddətli kurslar açıldı, məcburi hərbi mükəlləfiyyət haqqında fərman verildi. Lakin bunların kifayət etməyəcəyini və ordunun yaranmasının hər şeydən əvvəl vaxt tələb etdiyini nəzərə alaraq Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Türkiyə hökumətindən bir diviziya həcmində real hərbi yardım göstərilməsini xahiş etdi. Hərbi yardım xahişi Osmanlı imperiyası ilə Azərbaycan Respublikası arasında dostluq haqqında müqavilədə öz əksini tapdı. Azərbaycan korpusu ilə birlikdə bu hərbi hissələr Qafqaz İslam Ordusu adı altında birləşdi və Nuru paşanın komandanlığı altında Göyçay ətrafında döyüşə girdi. Sentyabrın 15-də Qurban bayramı günlərində Azərbaycan hərbi hissələri Bakıya girdi. Bakı uğrunda ağır döyüşlərdə mindən artıq Türkiyə əsgəri və zabiti şəhid oldu. Yerli əhalidən olan şəhidlərin sayısa 5 min nəfərdən çox idi.

Bakını fəthindən sonra dinc quruculuq dövrü çox çəkmədi. Azərbaycan demokratiyası yenidən imtahan qarşısında qaldı. Çünki Azərbaycanın xilaskarı və müttəfiqi olan Türkiyə dünya müharibəsində məğlub olmuşdu. Odur ki, o öz qoşunlarını bir həftə ərzində Bakıdan, bir ay ərzindəsə Qafqazdan geri çəkməli idi.

Bakını "rus şəhəri hesab edən ingilis ordusunun komandanı Tomson, rus generalı Biçeraxov və daşnak qüvvələri Bakıda işğal rejimi yaratdılar. İngilis generalı Tomson özünü Bakının general-qubernatoru elan etdi: şəhər polisi, liman, neft sənayesi, maliyyə idarələri, mətbuat üzərinə nəzarət qoydu: rus generalı Biçeraxov hətta özünün "Qafqaz-Xəzər hökumətini" yaratdı, vəziyyətin ağırlığı Azərbaycan hökumətini istiqlal fikrindən daşındırmağa vadar edə bilmədi, əksinə çox keçmədən Azərbaycan hökuməti öz mövqelərini bərpa etməyə başladı. Vətənin ərazi bütövlüyünü qoruya biləcək milli ordunun yaradılması xüsusi diqqət və böyük vəsait tələb edirdi. Generak Tomsonun tələbi ilə Azərbaycan korpusunun qərargahı noyabr ayının 22-də Bakıdan Gəncəyə köçürüldü. Fətəli xan Xoyskinin kabinetində hərbi nazir müavini vəzifəsini tutmuş (Hərbi nazir vəzifəsi Nazirlər Şurasının sədrinin ixtiyarında idi) topçu general Səmədağa Mehmandarov dekabrın 25-də hərbi nazir bir neçə gün sonrasa general-leytenant Əliağa Şıxlinski hərbi nazir müvini vəzifəsinə təyin edildilər. İndendant, mühəndis, növbətçi general, general-kvartiprmeyster, artilleriya hərbi təlim, topoqrafiya və nəzarət şöbələrindən ibarət ordu qərargahı çox əsaslı şəkildə təşkil olundu.

Qərargah şöbələrinin zabit kadrları ilə təkmili problemləri ortaya çıxdı. Bu problemlərin həlli üçün Azərbaycancanda olan rus zabitlərindən istifadə olunmaq qərara alındı. Bir qədər sonra sabiq Krım hökumətinin başçısı general Süleyman Sulicevicl, birlikdə bir neçə yüksək rütbəli zabitin Azərbaycana gəlməsi bu boşluğu bir qədər doldurmaq imkanı verdi. Nuru Paşanın vaxtilə yaratmış olduğu hərbi məktəbin müdavimləri ordunun təşkilinə cəlb edildi. Lakin zabit kadrlarının azlığı ordunun təşkili qarşısında duran ən böyük problemlərdən idi. Bir əsrə yaxın Azərbaycan müsəlman-türk əhalisi hərbi işə cəlb edilmədiyindən hərbi nazirliyin işi çox ağır idi.

1919-cu il üçün nəzərdə tutulmuş dövlət büdcəsində ordunun yaradılmasına 399,4 milyon manat ayrılırdı ki, bu da büdcənin 24 faizinə bərabər idi.

General Mehmandarov hərbi nazirliyin müəyyən olunmuş smetası haqqında Nazirlər Şurasına yazdığı təliqəsində Rusiya imperiyasından miras qalmış silah ambarları, qışlalar (kazarmalar), hərbi strateji şosse yolları və s. sarıdan Azərbaycanın qonşulara nisbətən əlverişsiz vəziyyətinə diqqəti cəlb edərək bu məbləğin kifayət qədər qüdrətə malik milli ordu yaratmağa bəs etməyəcəyini göstərirdi. Hərbi nazir Gürcüstan hökumətinin dövlət büdcəsinin 60 faizinin hərbi hissəyə yönəldiyini misal gətirərək Azərbaycan hökumətinin də hərbi hissəyə ayırdığı dövlət büdcəsinin artırılmasını tələb edirdi. İndi də qısaca da olsa, "Artileriyanın Allahı adlanan hərbi general Səməd Mehmandarovun sərgərdəlik qüdrətinə nəzər yetirək. Səməd Mehmandarov 1904-cü ilin 26 yanvarında başlanan rus-yapon müharibəsində yeddinci Şərqi-Sibir atıcı diviziyasının komandiri idi.

O yaponlara qarşı döyüşlərdə yüksək sərgərdəlik qabiliyyəti göstərdi və onun döyüşçüləri qalib gəldiyi üçün Səməd Mehmandarov 1904-cü il oktyabr ayının 22-də general-mayor rütbəsi aldı və dördüncü dərəcəli "Müqəddəs Georqi" ordenilə mükafatlandırıldı. S.Mehmandarov 1907—1910-cu illər arasında Sibir ordusunda artilleriyanın rəisi olmuşdur. 1908-ci ilin iyul ayının 13-də hərbi xidmətlərinə görə S..Mehmandarova general-leytenant rütbəsi verilmişdir. Səməd Mehmandarov Azərbaycanın hərbi naziri kimi də az müddətdə böyük işlər gördü və düşmənlər üzərində bir neçə qələbəyə imza atdı. Onun Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə yazdığı məktublarda da diqqət çəkir. Bu məktublardan birində: "General-leytenant Şıxlinskinin hərbi müsəlmanlar arasında böyük ziyalı gücünün olmaması haqqında məruzəsini nəzərə alıb onun hərbi nazirin ikinci müavini təyin edilməsi ilə bağlı zəmanət verirəm. Bu zəmanət həm də onunla bağlıdır ki, təzliklə mən hərbi hissələri, idarə və ambarları yoxlamağa getməliyəm. Odur ki, Gəncədə bir müavinim olmalıdır. Bundan başqa təklif edirəm ki, bütün texniki və hərbi-tədris sahələrinə rəhbərliyi də elə həmin generala daşırmaq lazımdır". S.Mehmandarov hərbi nazir olarkən ilk verdiyi əmrlərdən biri Azərbaycan ordusu əsgərinin ana dilində salamlaşmağı idi. Onun əmrində qeyd olunurdu: "Sırada, elecə də sıradan kənarda olarkən əsgərlərin türk salamlaşması bir sözlə "salam" cavabı isə əleykum salam olmasını bütün zabitlərə əmr edirəm. Təltif zamanı əsgərə deyilmişdir: "Mərhaba!" Əsgər cavab verməlidir: Çox sağ ol "General S.Mehmandarovun çoxlu sayda verdiyi əmrlər onun yüksək hərbi istedadı ilə yanaşı bacarıqlı nazir olduğunu da sübut edir".

Yazı Ortaq Dəyərlər İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə icra etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi çərçivəsində milli dövlətçilik ideyalarının təbliği" layihəsi əsasında dərc olunur